# Şəhid əsgərin layiq görüldüyü medal atasına təqdim olunub

Milli Ordunun əsgəri Nurəddin Etimad oğlu Mirzəyevin ölümündən sonra təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ailə üzvlərinə təqdim olunub.

Bu münasibətlə Yardımlı rayonunun Honuba kəndində keçirilən mərasimdə rayon icra hakimiyyətinin, Müdafiə Nazirliyinin məsul işçiləri, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, ağsaqqallar, gənclər və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən Yardımlı Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Azər Xamiyev son illər ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlərdən danışıb. Azərbaycan Prezidenti, Ali Baş Ko-




mandan İlham Əliyevin qayğı və diqqəti nəticəsində Milli Ordumuzun Cənubi Qafqaz regionunda ən güclü orduya çevrildiyini vurğulayan A.Xamiyev cəbhə bölgəsində düşmənin təxribat əməllərinin qarşısının layiqincə alındığını diqqətə çatdırıb.

Daha sonra şəhid Nurəddin Mirzəyevin layiq görüldüyü medal atasına təqdim olunub. Şəhid əsgərin atası Etimad Mirzəyev oğlunun xatirəsinin əziz tutulduğuna, ailəsinə göstərilən qayğıya görə dövlət başçısına minnətdarlığını bildirib.

Azərbaycan Ordusunun əsgəri Nurəddin Mirzəyev aprelin 2-dən 3-nə keçən gecə cəbhə bölgəsində gedən döyüşlərdə qəhrəmancasına həlak olub, doğulduğu Honuba kəndində dəfn edilib.

**AZƏRTAC**